**Rixard David**
**Prext**

# MƏN KİMƏM

*və belədirsə, neçə nəfərəm?*

Bir fəlsəfi səyahət

Alman dilindən tərcümə edən:
Şirastan Yusubov

qanun nəşriyyatı

Richard David
Precht

# WER
# BIN ICH
*und wenn ja, wie viele?*

Eine philosophische Reise

Həqiqət nədir? Mən kiməm? İçimdə başqa mən varmı? İnsan niyə yaxşılıq etməlidir? Bu böyük suallar bütün ağıllı insanları düşündürür. Cavablar müxtəlif olsa da, təxminən biri-birinə bənzəyir. Bu kitabdakı cavablar isə tamam fərqlidir. İndiyədək heç kim həyata dair fəlsəfi suallara bu qədər ağıllı və məharətlə, eyni zamanda pozitiv və mükəmməl yanaşmayıb.

Müəllif fəlsəfəni neyroelmdən tutmuş psixologiyaya qədər bütün elmlərin köməyi ilə tamam yeni formada təqdim edir. Elmin bugünkü heyrətamiz insan rəsmi bir pazl kimi ortaya çıxır.

Kitab özünükəşfin həyəcanlı səyahətidir: ağıllı, yumor dolu və əyləncəli.

**Richard David Precht** **Wer bin ich – und wenn ja, wie viele?**
**Rixard David Prext** **Mən kiməm və belədirsə, neçə nəfərəm?**
Bakı, Qanun Nəşriyyatı, 2024, 360 səh.

Janr: non-fiction/fəlsəfə
Yaş qrupu: 16+
Ölçü: 145x215 mm
Cild: yumşaq
Çapa imzalandı: 08.07.2024

Naşir: Şahbaz Xuduoğlu
Alman dilindən
tərcümə edən: Şirastan Yusubov
Redaktor: Şərif Ağayar
Korrektorlar: Ayxan Ayvaz
Bəsti Məmmədova
Texniki redaktor: Aygül Yelmarlı
Mətn dizaynı: Pərvanə Şahin
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-785-8

© Qanun Nəşriyyatı, 2024
© 2007 by Wilhelm Goldmann Verlag, a division of Penguin Random House Verlagsgruppe GmbH, München, Germany.

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa ziddir.

*Oskar və Cülyettaya*
*David və Mattiyöyə həsr olunur*

# GİRİŞ

Yunanıstanın Naksos adası Egey dənizində Kikladenin ən böyük adasıdır. Adanın ortasında min metrə yaxın hündürlüyündə Zas sıra dağları yüksəlir və ədva ətri verən çöllərdə keçilər, qoyunlar otlayır, üzüm, meyvə yetişir. Hələ 1980-ci illərdə Agiya Ana yaxınlığında əfsanəvi Naksosun kilometrlərlə uzunluğu olan narın qum təpələri vardı. Az-az gözədəyən turistlər burada vaxt keçirmək və kölgədə ağır-ağır mürgüləmək üçün bambuk alaçıqlar düzəltmişdilər.

1985-ci ilin yayında, təxminən 20 yaşlı iki gənc qaya çıxıntısının altında uzanmışdı. Birinin adı Yürgen idi və Düsseldorfdan gəlmişdi. Digəri isə mən idim. Biz bir neçə gün əvvəl çimərlikdə tanış olmuşduq. Atamın kitabxanasından özümlə məzuniyyətə götürdüyüm bir kitab haqqında dostumla müzakirə açmışdıq. Yeri gəlmişkən, balaca, zədələnmiş bir cib kitabı idi. Günün altında solmuş cildinin üzərində yunan məbədinin şəkli vardı, məbədin yanında yunan geyimində iki adam – Platon və Sokrat söhbət edirdi.

Bizim də bilib-bilmədiyimizdən fikir mübadilə etdiyimiz o gün günəş dərini yandıran kimi məni dağlamışdı. Axşamlar bir az pendir, şərab və yemiş götürüb tənhalığa çəkilirdik və öz düşüncələrimizi müzakirə etməyə davam edirdik.

Hər şeydən əvvəl Sokratın Platona görə özünü müdafiə nitqi, onun gəncləri yanlış yola apardığına görə ölümə məhkum edilməsi bizi daha çox məşğul etmişdi.

Xeyli vaxt onlar mənim beynimdən çıxmadılar – ölüm öncəsi dəhşət məni son dərəcə dərindən narahat edən bir mövzu idi. Yürgen isə buna az inanmışdı.

Yürgenin sifəti sonralar tamam yadımdan çıxdı. Onunla bir daha rastlaşmadım. Bu gün onu küçədə görsəm, tanımazdım. Mənim geriyə döndüyüm Agiya Ana çimərliyi bu gün hotelləri, çəpərləri, günəş çətirləri və bahalı yelləncəkləri ilə bir turizm cənnətidir. Beynimdə Sokrat dolu boğçası ilə mənə tərəf durmuşdu və deyəsən, bu duyğu məni qocalar evinə aparacaqdı. Sonra isə baxmaq lazımdır görək, onların məni sakitləşdirməyə gücü çatacaqdırmı?

Mən Agia Ana günlərindən üzübəri fəlsəfəyə ciddi marağımı itirməmişdim. Naksosdan qayıdan kimi dərhal mənə heç də xoş olmayan bir mülki xidmətə baş vurdum. Çox həssas zaman idi. NATO-nun ikili qərarları, sülh uğrunda hərəkat, Avropada qadağan edilmiş atom müharibəsi... Amerikanın oyunları bir baş işarəsi ilə həllini tapa bilməzdi.

İcma köməkçisi qismində mənim mülki xidmətim tutarlı düşüncələrə rəvac vermirdi; Yevangel kilsəsini içəridən görəndən sonra Katolisizm xoşuma gəldi. Bircə o qalırdı ki, həyatın böyük suallarına doğru cavabı tapım və doğru həyat tərzini seçim. Ona görə də fəlsəfə oxumaq qərarına gəldim.

Buna baxmayaraq, Kölndə təhsilə başlamağıma peşman olmuşdum. Bu vaxta qədər filosofları, özləri dediyi kimi, gərgin iş prinsipi olan, həyəcanlı və məntiqli həyat sürən insanlar hesab edirdim. Teodor Adorno, Ernst Blox, yaxud da Jan Pol Sartr kimi insanlar təəccüb doğururlar. Mükəmməl həyat və gözəl düşüncələrin məcmusundan ibarət bir baxış mənim müəllimin şəxsində buxarlanıb yoxa çıxdı. Qara və mavi rəngli avtobus sürücüsü kostyumunda darıxdırıcı qocalar idi onlar. Mən bu məsələlərə təəccüblənən şair Robert Muzili düşündüm. Kayzer dövrünün müasir və tərəqqipərvər mühəndisləri yeni dünyamızı torpaqla, su və havadan fəth edirdilər. Onlar köhnə modalı bığıburmalar idilər, dəri gödəkcələr geyinir, cib saatları gəzdirirdilər. Mənə həm də elə gəlirdi ki, kölnlü filosoflar öz ruhi azadlıqlarını öz həyatlarına tətbiq edə bilmirlər. Onlardan biri məni getdikcə daha çox düşünməyə vadar etdi. O mənə "niyə?" sualını verməyi öyrətdi və heç vaxt dərhal cavab verməməyi töv-

siyə etdi. Başa saldı ki, təfəkkür prosesi və arqumentlər zəngin olmalıdır. Ayrı-ayrı atılan hər bir addım digər addımın ciddi atılmasını tələb edir.

Mənim çox gözəl təhsil illərim oldu. Xatirələrimdə çətin oxunulan şeylər, kortəbii yemək bişirmələri, makaron süfrəsindəki söhbətlər, tünd-qırmızı şərab, seminarlardakı çılğın müzakirələr və fəlsəfə dərslərimizin praktiki sınaqları ilə tələbə yeməkxanalarındakı dəyirmi qəhvə stolları vahid bir ardıcıllıqla bir-birinə qarışmışdı. Biliklər və yanlışlar haqqında, düzgün həyat tərzi və futbol haqqında, əlbəttə, Loriotun dediyi kimi, kişi və qadın uyğunsuzluğu haqqında düşüncələr əqlimi dolaşdırmışdı. Fəlsəfənin gözəl tərəfi budur ki, üstündə sona qədər dayanılası fənn deyil. Əslində, fəlsəfə universitetdə qalmağımın səbəblərindən biri idi. Lakin mənim professorlarımın keçirdiyi həyat tərzi, necə deyərlər, çox da cazibədar deyildi. Bundan başqa, ali məktəb fəlsəfəsinin belə təsirsiz olması məni kədərləndirirdi. Tələbə yoldaşlarım ona görə oxuyurdular ki, mətnlərdən və kitablardan canlarını qurtarsınlar. Doktorant kimi baş çəkdiyim simpozium və konqreslərdə də iştirakçıların qavrayış tutumu məndə tam əks-illüziya yaradırdı. Təkcə suallar və kitablar məni həyatım boyu müşayiət etdi. Bir il bundan əvvəl ağlıma gəldi ki, fəlsəfəyə girişdə çox az qaneedici hallar var. Təbii ki, düşüncəni proqramlaşdıran və hamarlayan çox və ya az kitablardan söhbət gedir, lakin mən bunu düşünmürəm. Həmçinin seçilmiş filosofların həyatını və fəaliyyətini təsvir edən, yaxud onları oxumağa vadar edən ağıllı və faydalı kitablar da əsas deyil. Mən böyük əhatəli suallarda sistematik maraq görmürəm. Sistematik giriş kimi görünən nə varsa, əksər hallarda özünü düşüncə axınının və düşüncə yolunun ardıcıllığı kimi nümayiş etdirir, bu isə mənə tarixi fakt kimi maraqlıdır. Yaxud da orada izafi məqamlar çoxdur və xeyli quru fikirlər yer alıb. Bu siyahıya daxil olmayan dərslər göz qabağındadır: universitetlər heç də mütləq öz stilləri ilə kömək etmir. Akademik təhsildə hələ də əksər hallarda tədris olunanın dərk etdirilməsinə deyil, tələbələrin intellektual kreativliyinə qiymət verilir. Xüsusilə də, fəlsəfənin bir "elm sahəsi" kimi qeyri-təbii sərhədləri onu dəqiq anlamağa mane olur. Mənim professorlarım Kant və Hegel nəzəriyyələri əsasında insan şüurunu izah edən zaman

onların dostları səkkiz yüz metr aralıdakı tibb fakültəsində beyin zədəsi almış xəstələr üzərində sınaqlar keçirirdilər. Səkkiz yüz metr ölçüsü olan universitet binası böyük ərazidir. Professorlar iki müxtəlif planetdə yaşayırdılar və heç vaxt bir-birinin adlarını bilmirdilər. Şüur haqqında fəlsəfi, psixoloji və neyrobioloji bilgilər bir-birinə necə uyğun gələ bilər? Onlar bir-birinə mane olur, yoxsa bir-birini tamamlayır? Burada "Mən" vardırmı? Hisslər nədir? Yaddaş nədir? Fəlsəfi tədris planında gərgin suallar qoyulmamışdı və gördüyüm qədər o vaxtdan bəri çox az şeylər dəyişib.

Fəlsəfə tarixi elm deyil. Anlaşılan budur ki, mirası qorumaq öhdəliyi var və mənəvi həyat sferasında köhnə tikililəri davamlı olaraq nəzərdən keçirir, lazım gəldikdə təmir edirlər. Lakin geriyə istiqamətlənən fəlsəfə akademik iş sahəsində hələ də üzü gələcəyə mövqe tutur. Demək, bəzilərinin fikirləşdiyi kimi, heç də keçmişin dərin fundamenti üzərində dayanmır. Fəlsəfə tarixi daha çox unudulan və sıxışdırılan, modalar və zamanın hökmü ilə davrananların, elmin və ona görə də, yenicə öz təsirini göstərməyə başlayan, çünki bundan əvvəl bir çox düşünülmüş şeylərə məhəl qoyulmayan çox sayda yeni başlanğıcların tarixidir. Axı həyat çox nadir hallarda nəyisə qurar və bunun üçün başqa yerdən daş gətirmir. Əksər filosoflar öz fikir binalarını sələflərinin xarabalıqları üzərində ucaltdılar, tez-tez düşündükləri kimi, bütün fəlsəfə tarixinin xarabazarlığı üzərində qurmadılar. Lakin, nəinki bir çox hiyləgər baxışlar və üsulları getdikcə öz yolundan çıxdı, eləcə də dünyamıza yad olanlar zaman-zaman yenidən düşünüldü və təkrar canlandı. İntellekt və nifrət arasındakı bu parçalanma filosofların özlərində də görünür. 18-ci əsrdə yaşamış şotland David Ham bir çox yönlərinə görə inanılmaz dərəcədə müasir mütəfəkkir olmuşdur. Lakin onun başqa xalqlara, xüsusən, afrikalılara yanaşması şovinist və irqçi idi. Fridrix Nitsşe 19-cu əsrdə fəlsəfənin iti ağıllı tənqidçilərindən sayılırdı, lakin onun insanlar haqqında təxəyyülü dəyərsiz, təkəbbürlü və cəfəng idi. Faktiki olaraq heç bir mütəfəkkirin öz baxışları ilə düzgün mövqedə olub-olmaması əsas kimi götürülmür. İndicə xatırlanan Nitsşe fəlsəfə sahəsində böyük təsirə malik olmuşdu, baxmayaraq ki, dediklərinin əksəriyyəti o qədər də yeni və orijinal deyildi. Ziqmund Freyd

tam haqlı olaraq əhəmiyyətli bir insan kimi qəbul edilirdi. O, ən böyük mütəfəkkirlərdən biri idi. Psixoanalizdə bir çox şeylərin detalları ilə uyğun gəlməməsi başqa məsələdir. Eləcə də Fridrix Hegelin böyük fəlsəfi və siyasi əhəmiyyəti maraqlı bir uyğunsuzluq içərisindədir. Əgər qərb fəlsəfəsinin tarixinə yaxından nəzər salsaq, görərik ki, əksər qarşıdurmalar tam da aydın olmayan dostluq-düşmənçilik mövqeyi daxilində baş verir: yəni bu materialistlər və idealistlər arasındakı (ingilis dilində empiriklər və rasionalistlər) ədavətdir.

Əslində, bu baxış qaydaları bütün təsəvvür olunan kombinasiyalarda və həmişə də yeni libasda ortaya çıxır. Lakin onlar təkrar olunurlar. Materializmə inam burasındadır ki, əqlən keçilməsi mümkün olan təbiətdən kənar heç nə yoxdur. Nə Allah, nə də İdeal. Bu isə ilk dəfə 18-ci əsrdə Fransa maarifçiliyindən sonra dəbə mindi. İkinci dəfə isə bizim qarşımıza biologiyanın növbəti uğurları və 19-cu əsrdə Darvinin təkamül nəzəriyyəsi ilə çıxdı. Müasir neyroalimlər ilə o, bu gün üçüncü dəfə öz təntənəsini qeyd edir. Lakin şəraitdən asılı olaraq fazalar vardı və idealizm mümkün olan bütün imkanlarda önə çıxırdı. Materialistlərin əksinə olaraq idealistlər əqli-bəşəri biliklərə az inanır, ideyanın müstəqil gücünə istinad edirdilər. Təbii ki, hər iki fəlsəfi etiketin arxasında əhəmiyyətli nümunələr və müxtəlif fəaliyyət əsasları gizlənir. Platon kimi idealist bütövlükdə heç də başqa bir idealist İmmanuel Kant kimi düşünmürdü. Ona görə də fəlsəfənin "həqiqi" tarixini yazmaq mümkün deyil: nə böyük filosofların zaman ardıcıllığındakı məntiqi düzümü, nə də fəlsəfi cərəyanların tarixini. Onlar gerçəkliyin həqiqətdən doğan bir çox cəhətlərini kənara atmağa məcbur olmuşdular.

İnsanın və bəşəriyyətin mövcudluğu ilə bağlı fəlsəfi suallar bu gün də işə yarayır. Lakin burada müzakirə olunan məsələlər tarixi kontekstdə baş vermir. Bu fəlsəfə tarixi də deyil. İmmanuel Kant bir zamanlar bəşəriyyətin ən böyük suallarını verdi: "Mən nəyi bilə bilərəm? Mən nə etməliyəm? Mən nəyə ümid bəsləyə bilərəm? İnsan nədir?" Suallar bu kitabın tərtib olunmasında aparıcı xətti müəyyən edir. Bununla da son sual